

*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

Heydər Əliyev

# XIZI


Qəzet 1990-cı ildən çıxır.
№ 4-5 (194-195) 318-319
Aprel-may 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti


# HEYDƏR ƏLİYEV - 101

**"Bizim məqsədimiz Azərbaycanı bir müstəqil dövlət kimi yaşatmaq, inkişaf etdirmək, dünya dövlətləri içərisində güclü, iqtisadi cəhətdən inkişaf etmiş bir dövlətə çevirməkdir. "**

**Heydər Əliyev,**
**Ümummilli Lider**



**"Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir."**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Milli dövlətçiliyimizin memarı

**Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr edən bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.**





Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.









Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar

Xızı rayonunda "Milli dövlətçiliyimizin memarı" mövzusunda tədbir keçirilib.

Mayın 8-də Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil edilmiş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, millət vəkili Müşfiq Məmmədli, Xızı RİHBA-nın rəsmiləri, YAP fəalları, idarə təşkilat və müəssisələrin məsul şəxsləri iştirak ediblər.

Əvvəlcə, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ümummili Liderin həyat və fəaliyyətini geniş surətdə əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov bildirib ki, Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Xəzər Aslanov daha sonra Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından söhbət açıb.

Öz çıxışında "Prezident İlham Əliyevin müasir Azərbaycan siyasətində bir qüdrətli şəxsiyyət olaraq meydana çıxması mahiyyət etibarilə Heydər Əliyev siyasətinin təkcə davamı deyil, eyni zamanda onun yeni keyfiyyət halında inkişaf etdirilməsidir." - deyə Xəzər Aslanov qeyd edib.

YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev tədbirdə çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki əvəzsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Azərbaycanın müasir tarixinin milli intibah dövrü müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olub. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır.

Millət vəkili Müşfiq Məmmədli öz çıxışında Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyini xaos, anarxiya və böhran məngənəsindən çıxardığını, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirdiyini, böyük azərbaycanlının yaddaşlarımızda daim qurucu və xilaskar dövlət rəhbəri kimi qalacağını vurğulayıb.

Tədbirdə çıxış edən R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin müəllimi Fatimə Əlizadə qeyd edib ki, Azərbaycan dünyada layiq olduğu mərtəbəyə məhz xalq məhəbbətini qazanan Ümummilli Lider Heydər Əliyevin üzaqgörənliyi, müdrikliyi, qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlmişdir.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Bir qrup partiya fəalı YAP Xızı rayon təşkilatının Fəxri Fərmanı ilə təltif olunub.

***"XIZI", R.M.***
***08 may 2024-cü il***

# Xızıda Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olundu





XX əsrdə xalqımızın yetirdiyi fenomenal tarixi şəxsiyyət - Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını tarixi irs və ənənə əsasında yaradaraq praktik surətdə gerçəkləşdirmiş böyük strateq kimi xalqın əbədi və tükənməz sevgisini qazanmışdır. Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Xızı rayonunda silsilə tədbirlər keçirilib.

Mayın 10-da Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı RİHBA-nın işçiləri, hüquq-mühafizə orqanlarının, eləcə də idarə, təşkilat və müəssisələrin rəsmi şəxsləri Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərində ucaldılmış abidəsini ziyarət etdilər, önünə tər gül dəstələri düzərək, dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildirdilər.

***"XIZI", R.M.***
***10 may 2024-cü il***

# Xızıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilmişdir





**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar mayın 10-da Xızı rayonunda ağacəkmə aksiyası keçirilmişdir.**

Aksiyada Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı RİHBA-nın işçiləri, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin rəhbərləri iştirak etmişdir.

Ağacəkmə aksiyasının keçirilməsində əsas məqsəd Azərbaycanda ətraf mühitin və meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamış Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir daha yad etmək və müdrik şəxsiyyətin yaşıllaşdırma ənənələrini, irsini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, doğma təbiətə olan qayğı hissini aşılamaq olmuşdur.

***"XIZI", R.M.***
***10 may 2024-cü il***

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin iyun ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Məşədi Həsən kəndi | Məşədi Həsən bələdiyyəsinin inzibati binası | 07.06.2024 | 11:00 |
| 2 | | Tıxlı kəndi | Tıxlı kənd ümumi orta məktəbin binası | 12.06.2024 | 11:00 |
| 3 | | Ağdərə kəndi | Ağdərə kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 13.06.2024 | 11:00 |
| 4 | | Qasımkənd kəndi | Qasımkənd kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 20.06.2024 | 11:00 |

**"Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib."**

***Heydər Əliyev,***
***Ümummilli Lider***

# Zərifə xanımın nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır

**"Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən, onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi."**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir.

Zərifə xanım ömür-gün yoldaşı Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə addımlayır, qayğısına qalır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu yükü kövrək çiyinlərində böyük mətanət və fədakarlıqla daşıyırdı. Eyni zamanda, övladlarını vətənin layiqli övladları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirirdi. Bütün bunlarla bərabər gərgin iş və elmi fəaliyyət…

Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Doğulub boya-başa çatdığı mühitin onun taleyində həlledici rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi, mahir səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Atası Əziz Əliyev dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdı. Onun enişli-yoxuşlu həyatının bütün mərhələləri əslində övladları üçün həyat məktəbi idi. Belə bir ailədə böyüyən Zərifə xanım təbii ki, səmimiyyəti, insanlara sevgisi ilə başqalarından seçilirdi. Bu nəslə və ailəyə məxsus ziyalılıq, əməksevərlik, doğma ocağa, xalqa və vətənə bağlılıq kimi nəcib xüsusiyyətlər onun həyatında öz təcəssümünü tapmışdı. Atasının yolunu davam etdirməyi, gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə aparıb çıxarır və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır".

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Tədqiqatlarının yekunu olaraq, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.

Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə



Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Bakı Məişət Kondisionerləri Zavodunda təşkil edilmiş bu laboratoriyada elmi-tədqiqat işləri ilə yanaşı, həmin zavodun və digər iri sənaye müəssisələrinin işçilərinə müalicə köməyi də göstərilib. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Bu tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Alimin göz yaşı xəstəliklərinə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları da ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

***Zərifə xanım Əliyeva:***
**"Həkim insanlara günəş qədər lazımdır".**

Görkəmli oftalmoloqun tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində ətraflı əks olunub. Bu əsərdə həkim və xəstənin qarşılıqlı münasibətlərinin həssas məqamları, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolu, tibb işçilərinin yalnız təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyi ön planda verilib.

Təsadüfi deyildi ki, Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmiş, o özündən sonra dəyərli məktəb qoymuşdu.

Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Tibb elmində öz dəst-xətti olan yenilikçi alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

Zərifə xanım Əliyeva az yaşadı. O, istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi. Ömrünün sonuncu anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində vəfat edib. Zərifə xanım Əliyeva Bakıdakı Fəxri Xiyabanda dəfn olunub.

Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

***"XIZI"***

# Zərifə xanım Əliyeva - işıqlı ömrün salnaməsi

"Akademik Zərifə xanım Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Alimin birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Oftalmoloq-alim öz tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. O, heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır" - Bu fikirlər görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 101 illiyi ilə əlaqədar Xızıda keçirilən "Zərifə Əliyeva - İşıqlı ömrün salnaməsi" adlı tədbirdə səslənib.

Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə aprelin 26-da Heydər Əliyev Mərkəzinin konfrans zalında keçirilmiş tədbirdə Xızı RİHBA-nın rəsmiləri, YAP Xızı rayon təşkilatının fəalları, Xızı Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin həkim kollektivi, Abşeron - Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı sektorunun əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.





Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla iş təşkilatçısı Abdulla Hüseynov öz çıxışında Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın mənalı ömür yolu, əhatəli elmi fəaliyyəti, oftalmologiya elminin inkişafına həsr etdiyi çoxprofilli tədqiqatları və yazdığı yüzlərlə dəyərli elmi-tədqiqat işləri haqqında əhatəli məlumat verib.

A.Hüseynov daha sonra Zərifə xanım Əliyevanın görkəmli ictimai xadim kimi fəaliyyətindən bəhs edərək bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsində ona arxa-dayaq olmuş, övladlarını vətənin layiqli övladları və öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirmişdir.

Sonrakı çıxışlarda bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli həkim, yüksək intellekt və mədəniyyət, dərin bilik və insanpərvərlik timsalı olan Zərifə xanım Əliyevanın həyat yolundan danışılıb, tibb elminin inkişafı, yüksək ixtisaslı kadrların yetişdirilməsinə sərf etdiyi gərgin əmək və tibbin müxtəlif sahələrinə aid yazdığı fundamental əsərlərdən, dünya şöhrətli oftalmoloq-alim kimi zəngin həyat təcrübəsindən geniş bəhs edilib.

Tədbirdə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən video-slayd nümayiş etdirilib.

***"XIZI", R.M.***
***26 aprel 2024-cü il***

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı sakinlərlə səyyar görüş-qəbullar keçirir

**Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2024-cü ilin aprel və may ayları üçün təsdiq olunmuş qrafikə əsasən, aprelin 15-də Xızı şəhərində, aprelin 17-də Fındığan kəndində, aprelin 18-də Altıağac qəsəbəsində, aprelin 19-da Baxşılı kəndində, mayın 8-də Yeni Yaşma kəndində, sakinlərlə səyyar görüş-qəbullar keçirib.**

Yerlərdə vətəndaşlarla keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı rayon prokuroru Xəyalə Aslanova, Xızı RİHB-nın müavini Arzu Əzizov, Xızı RİHBA-nın məsul əməkdaşları, eləcə də müvafiq idarə, təşkilat və müəssisələrin rəhbərləri iştirak ediblər.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov sakinlərin müraciətlərini diqqətlə dinlədikdən sonra, onları narahat edən problemlərlə yaxından tanış olub, vətəndaşların təklif və şikayətləri ilə bağlı mövcud çətinliklərin tezliklə aradan qaldırılması istiqamətində fikirlərini söyləyib və aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

*"XIZI", R.M.*


Xızı şəhəri


Xızı şəhəri


Altıağac qəsəbəsi


Fındığan kəndi


Fındığan kəndi


Altıağac qəsəbəsi


Baxşılı kəndi


Baxşılı kəndi


Yeni Yaşma kəndi


Yeni Yaşma kəndi


# Növbəti ağacəkmə aksiyasında







**Ölkəmizdə ətraf mühitin, meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamaq, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etmək məqsədilə "Yaşıl Dünya Həmrəylik İli" çərçivəsində Xızı rayonunda növbəti ağacəkmə aksiyası keçirilib.**

Aprelin 3-də Xızı şəhərindəki Heydər Əliyev Parkında təşkil edilmiş aksiyada Xızı Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Əzizov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı rayon prokuroru Xəyalə Aslanova, eləcə də Xızı RİHBA-nın işçiləri, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları iştirak ediblər. 75 nəfərin qatıldığı aksiyada 470 ədəd həmişəyaşıl və tuya ağacları əkilmiş, yeni basdırılmış tinglərə aqrotexniki qulluq göstərilmiş və suvarılmışdır.

*"XIZI", R.M.*
*03 aprel 2024-cü il*

# Müasir Azərbaycan-Rusiya münasibətləri dostluğa və qarşılıqlı anlaşmaya əsaslanır

**Azərbaycan və Rusiya arasında əlaqələr dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq sürətli inkişaf mərhələsindədir. Ölkələrimizin çoxşaxəli qarşılıqlı əlaqələrində siyasi münasibətlər daha önəmli yer tutur.**

Müəyyən zaman kəsiyində Azərbaycan və Rusiyanın vahid ittifaqda yer alması ölkələrimiz arasında münasibətlərin özünəməxsus xarakterini formalaşdırıb.

Sovetlər İttifaqının süqutundan sonra müstəqillik dönəmində bu iki ölkə arasındakı əlaqələr daha sürətlə inkişaf edib.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkələrimiz münasibətləri ən yüksək səviyyədə inkişaf etdirməyə başlayıblar.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edən əsas sənəd 1997-ci il iyulun 3-də imzalanıb. Bu sənəd "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə"dir.

2002-ci ilin yanvarında Ümummilli Liderimiz Heydər Əliyevin Rusiyaya dövlət səfəri isə şimal qonşumuzla münasibətlərdə tamamilə yeni mərhələnin təməlini

qoyub. Həmin tarixi səfər çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından vacib sənəd olub.

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində inkişafını xarakterizə edir.

Prezident İlham Əliyev də Rusiya ilə ikitərəfli əlaqələrin genişləndirilməsini vacib amil kimi diqqət mərkəzində saxlayır.

Azərbaycan Prezidentinin 2004-cü ilin əvvəllərində Rusiyaya ilk rəsmi səfəri bu baxımdan əlamətdar olub. Dövlətimizin başçısının Rusiyaya ardıcıl rəsmi səfərləri Azərbaycanın Rusiya Federasiyası ilə dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmi təsdiqləyir.

Rusiya Azərbaycanın şanlı Qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələnən İkinci Qarabağ müharibəsini başa çatdıran 2020-ci il 10 noyabr müqaviləsinin imzalanmasında xüsusi rol oynayıb.

Azərbaycan və Rusiya prezidentləri tərəfindən 2022-ci il fevralın 22-də Moskvada imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə qaldırıb.

Siyasi münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsirini göstərir.

Azərbaycanla Rusiya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər, 260 sənədi əhatə edən geniş hüquqi baza və mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişafında həlledici rol oynayır.

Ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və digər istiqamətlərdə görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticari-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Xüsusilə 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq, 2023-cü ildə 4,5 milyard ABŞ dollarına çatıb. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

Əməkdaşlığımızın nisbətən yeni sahəsi olan sənaye kooperasiyası layihələrinin reallaşdırılması da iqtisadi əlaqələrin inkişafında xüsusi yer tutur. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq, sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verir. Hazırda Azərbaycanda Rusiya kapitallı 1400-dən çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. Ötən il Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləği 300 milyon dollara yaxın olub.

Azərbaycan-Rusiya iqtisadi münasibətlərinin inkişafında regionlararası forumlar da mühüm yer tutur.

Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb.

Humanitar əlaqələr də Azərbaycan-Rusiya əməkdaşlığında mühüm yer tutur. Hazırda Azərbaycanın 26 ali məktəbində rus dilində təhsil həyata keçirilir, 16 min Azərbaycan vətəndaşı olan tələbə rus dilində təhsil alır. Həmçinin 324 orta məktəbdə təhsil rus dilində aparılır. Bu, onilliklər ərzində xalqlarımızı birləşdirən bütün yaxşı cəhətlərin qorunmasında, dövlətlərarası münasibətlərin bünövrəsini təşkil edən dostluq əlaqələrinin gücləndirilməsində və inkişafında mühüm əsaslardan birini təşkil edir.

***

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il aprelin 22-də Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə birgə 20-ci əsrin ən nəhəng tikintilərindən olan Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşdə iştirak edib. Dövlətimizin başçısının bu görüşə dəvət alması heç də təsadüfi deyil və Azərbaycan üçün mühüm tarixi əhəmiyyətə malikdir.

Belə ki, Ulu Öndər Heydər Əliyev vaxtilə BAM-ın - Ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində yaxından iştirak edib və onun reallaşdırılmasında əvəzsiz xidmətlər göstərib. Bununla yanaşı, Azərbaycan inşaatçılarının və mütəxəssislərinin fəal iştirakını, Baykal-Amur Magistralının inşasında xarüqələr yaratdıqlarını qeyd etmək yerinə düşərdi. Fədakar mövqe nümayiş etdirən Ümummilli Lider sovet dövlətinin həyata keçirə biləcəyi tikintinin miqyasından deyil, ilk növbədə, ən çətin şəraitdə, bəzən daim donuşluq içində olan keçilməz meşələrdə, yolsuzluq şəraitində həyatlarını riskə atan BAM-çıların fədakarlığından təsirlənmişdi.

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev amili Azərbaycan-Rusiya dövlətlərarası münasibətlərinin müsbət xətlə inkişafında həmişə mühüm rol oynayıb. 2000-ci illərin əvvəllərində ölkələrimiz arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz Ümummilli Lider Heydər Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qoyublar.

2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi təkcə Azərbaycanda deyil, Rusiyada da silsilə tədbirlərlə, xüsusi hörmətlə qeyd edilib. Bu, Rusiya rəhbərliyinin və ictimaiyyətinin Heydər Əliyevin xatirəsinə göstərdikləri böyük ehtiramın təcəssümüdür. Azərbaycan xalqı isə bunu öz növbəsində yüksək dəyər kimi qiymətləndirir.

*"XIZI"*

# Azərbaycanla Qırğızıstanı dostluq və qardaşlıq əlaqələri birləşdirir

**Azərbaycan və Qırğızıstan respublikaları arasında dövlət başçıları səviyyəsində hər il qarşılıqlı səfərlərin həyata keçirilməsi üzrə yaxşı ənənə formalaşıb. Hər bir görüş iki qardaş ölkə arasında qarşılıqlı fəaliyyətin, ünsiyyətin gücləndirilməsi, eləcə də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından böyük əhəmiyyətə və dəyərə malikdir.**

Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 24-də Azərbaycanda rəsmi səfərdə olub. Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun görüşü, dövlət başçılarının iştirakı ilə Dövlətlərarası Şuranın ikinci iclasında imzalanmış sənədlər ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi, ticarət dövriyyəsinin artması və bütün istiqamətlər üzrə əməkdaşlığa dair praktiki müstəvidə özünü aydın şəkildə göstərəcəyinin bariz nümunəsidir.

Azərbaycanı Mərkəzi Asiya ilə çoxəsrlik əməkdaşlıq, dostluq, qarşılıqlı fəaliyyət bağları birləşdirir. Bu gün Mərkəzi Asiya və Xəzər regionları, Xəzər və Cənubi Qafqaz regionlarının bir hissəsi olan Azərbaycan enerji resursları, nəqliyyat yolları, ticarət baxımından mühüm əhəmiyyət kəsb edir . Azərbaycanla Qırğızıstan iqtisadi-ticari sahədə fəal əməkdaşlıq edir. Ticarət dövriyyəsi durmadan artır.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata verdiyi bəyanatda bildirib ki, Azərbaycan-Qırğız İnkişaf Fondunun Nizamnamə fondu 4 dəfə - 25 milyon dollardan 100 milyon dollara qədər artıb. 100 milyon dollar da son hədd deyil. Müvafiq hökumət strukturlarında birgə investisiya fondu çərçivəsində layihələrin həyata keçirilməsi mexanizmini daha tez reallaşdırmaq üçün tədbirlər görülür.

İnvestisiya siyasəti üzrə digər formalara da müraciət olunacağını bildirən Azərbaycan Prezidenti artıq İssık-Kul gölünün sahilində Azərbaycanın maliyyələşdirdiyi beşulduzlu otelin tikintisinə başlanıldığını, Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Ağdam rayonunda orta məktəbin tikintisini Qırğızıstanın öz vəsaiti hesabına həyata keçirəcəyini vurğulayıb.

Azərbaycan Qırğızıstanda bərpa olunan enerji üzrə investisiya layihələrində də maraqlıdır. Həm Qırğız Respublikasında, həm də Azərbaycanda irimiqyaslı nəqliyyat layihələri, dəmir yolunun tikintisi həyata keçirilir.

Aprelin 24-də Azərbaycan və Qırğız prezidentlərinin iştirakı ilə Dövlətlərarası Şuranın ikinci iclasında Azərbaycanla Qırğızıstan arasında "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı", "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi", "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Qırğız Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Nazirlər Kabineti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında 2024-2029-cu illər üzrə Əməkdaşlıq Proqramı", "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətdə statistik məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol", "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş", "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Əlavə Saziş", "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" kimi mühüm sənədlər imzalanıb.

Dövlət başçıları aprelin 24-də Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak ediblər. Abidənin açılış mərasimində "Qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsinin açılışı dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzi olacaq." - deyən Prezident İlham Əliyev Azərbaycan xalqının dünya şöhrətli yazıçının yaradıcılığını sevdiyini və fəal vətəndaş mövqeyinə, milli ruhuna və köklərinə sadiqliyinə görə ləyaqətli insan kimi hörmət bəslədiyini, Çingiz Aytmatovun xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif edildiyini, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət olaraq xatirəsinin, nəinki qırğız xalqının, həmçinin bütün qardaş xalqların qəlbində yaşayacağını vurğulayıb.

Azərbaycan Qırğız Respublikası ilə münasibətlərə böyük önəm verir. Azərbaycan və Qırğız xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. İki ölkənin möhkəm təməllər üzərində qurulan münasibətləri yüksələn xətlə inkişaf edir.

Qeyd edək ki, Azərbaycanla Qırğızıstan arasındakı uğurlu dövlətçilik münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub.

Ulu Öndər Heydər Əliyev 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşü və "Manas" eposunun 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün ilk dəfə Qırğızıstana səfər edib.

Azərbaycanın Qırğızıstanda səfirliyi 2007-ci ildə, Qırğızıstanın Bakı səfirliyi 2008-ci ildə fəaliyyətə başlayıb.

*"XIZI"*

# "Dənli və texniki bitkilərin yayılması, daşınması, saxlanılması və emalı dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və yanğı təhlükəsizliyində mövcud problemlərin həlli yolları" mövzusunda müşavirə keçirilmişdir

**Xızı rayonunda"Dənli və texniki bitkilərin yayılması, daşınması, saxlanılması və emalı dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və yanğı təhlükəsizliyində mövcud problemlərin həlli yolları" mövzusunda müşavirə keçirilmişdir.**





Mayın 16-da Heydər Əliyev Mərkəzinin konfrans zalında keçirilmiş müşavirədə Xızı Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zabil Məlikov, FHN Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğına qarşı Təbliğat şöbəsinin böyük təlimatçısı Rövşən Bəkirov, FHN Sumqayıt Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin rəisi Məhəmməd Qarabəyov, rəis müavini Nicat Məmmədov, şöbə rəisi Zabit Dünyamalıyev, eləcə də FHN Yanğından Mühafizə Xidmətinin Xızı rayon bölməsinin əməkdaşları, Xızı RİHB-nın inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri iştirak etmişlər.

Müşavirədəki çıxışlarda ölkəmizdə taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində həyata keçirilən strateji əhəmiyyətli məsələlərdən danışılmış, biçinə hazırlıq dövründə, dənli və texniki bitkilərin yetişdiyi dövrdə, eyni zamanda məhsul yığımı dövründə yanğın təhlükəsizliyi ilə əlaqədar aparılan tədbirlərdən bəhs edilmişdir.

***"XIZI", R.M.***
***16 may 2024-cü il***

# Sağlam ailə möhkəm cəmiyyətin təməlidir





**"Ailə məsələlərinə cəmiyyətin diqqəti artırılmalıdır." Bu fikirlər 15 may - Beynəlxalq Ailə Günü ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid Rafiq İsmayılov adına Xızı şəhər tam orta məktəbində keçirilmiş "Sağlam ailə möhkəm cəmiyyətin təməlidir" adlı maarifləndirici tədbirdə səslənmişdir.**





Mayın 2-də təşkil edilmiş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin, Xızı Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin əməkdaşları, eləcə də yuxarıda adı çəkilən təhsil ocağının müəllim və şagird kollektivi iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Tünzalə İmranova öz çıxışında qlobal proseslər fonunda ciddi zərər görən ailə institutunun daha da möhkəmləndirilməsi, cəmiyyətin diqqətinin bir daha ailə məsələlərinə yönəldilməsi barədə danışmış, milli-mənəvi dəyərlərə, ailə dəyər və ənənələrinə sədaqət hissinin təbliğ edilməsinin, ailələrin asudə vaxtının səmərəli təşkil edilməsinin vacibliyini vurğulamışdır.

R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin direktoru Fazil Məmmədov tədbirdə çıxış edərək ekoloji tərbiyənin təməlinin ailədə qoyulduğunu bildirmiş, uşaqlarda təbiətə qarşı məsuliyyət hissi formalaşdırmağı , heyvanların, bitkilərin və digər canlıların qayğısına qalmağı öyrətməyin valideynlərin mühüm vəzifələrindən biri olduğunu diqqətə çatdırmışdır.

Milli-mənəvi dəyərlərin, ailə dəyərlərinin qorunub saxlanılaraq gənc nəslə aşılanması, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, valideyn-uşaq münasibətlərinin tənzimlənməsi, sağlam həyat tərzi, ekoloji düşüncənin əhəmiyyətindən bəhs edən geniş məruzələr tədbir iştirakçıları tərəfindən böyük maraqla dinlənilmişdir.

***"XIZI", R.M.***
***02 may 2024-cü il***

# Xızı rayonunda kompleks mülki müdafiə təlimi keçirilib





**Altıağac qəsəbəsi ərazisində "İrimiqyaslı fövqəladə hadisələrin nəticələrinin qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda kompleks mülki müdafiə təlimi keçirilib.**

Mayın 2-də təşkil edilmiş təlimə Fövqəladə Hallar Nazirliyi Sumqayıt Regional Mərkəzi, Xızı Rayon İcra Hakimiyyətinin Fövqəladə Hallar Komissiyası, rayonun xidmət təşkilatlarının mülki müdafiə qərargahları və Qızıl Aypara Cəmiyyətinin könüllüləri cəlb edilib. Təlim prosesində əməli məşq zamanı rayonun mülki müdafiə qüvvələrinin aidiyyəti orqanlarla koordinasiyalı şəkildə fəaliyyətinə və fövqəladə hadisələr baş verdiyi vaxt birgə işin aparılması hazırlığına xüsusi diqqət yetirilib.

***"XIZI", R.M.***
***02 may 2024-cü il***



# Uşaq Səfirlər Məclisi nümayəndələrinin və fəal uşaqların təlimçilik bacarıqlarının inkişaf etdirilməsi məqsədilə Xızı rayonunda təlim keçirilib





**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Xızı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə aprelin 16-da Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Uşaq Səfirlər Məclisinin nümayəndələri və fəallıqları ilə seçilən uşaqlar üçün təlim proqramı təşkil olunub.**

"Təhlükəsiz internet üçün maarifləndirici" mövzusunda keçirilən təlimlərdə informasiya dövründə internetin faydalı cəhətləri, eləcə də zərərli təsirləri və mənfi hallarla mübarizə istiqamətində məlumatlar diqqətə çatdırılıb.

Təqdimatda informasiya təhlükəsizliyinin təmin edilməsi, uşaqların sosial şəbəkələrdən və ümumilikdə, internetdən düzgün istifadəsinin təşviq edilməsi, spam xarakterli və viruslu onlayn proqramların və mesajların ayırd edilməsi, güclü şifrələrin yaradılması haqqında ətraflı məlumat verilib. Bildirilib ki, internetin uşaqlara mənfi təsirləri sırasında fiziki və psixoloji xəstəliklərin yaranması, asılılıq və zərərli vərdişlərə aludəçilik hallarının baş verməsi, insan alverinin qurbanı olma, real həyatdan və ailədən uzaqlaşma və digərləri yer alır.

İnteraktiv şəkildə davam edən təlimdə iştirakçılar komandalar quraraq, informasiya təhlükəsizliyinin təmin edilməsi və internetin zərərli təsirlərindən müdafiə mövzusu ətrafında səhnəciklər nümayiş etdiriblər.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

***"XIZI", R.M.***
***16 aprel 2024-cü il***

# "Narkomaniya, erkən nikah və onların fəsadları" mövzusunda tədbir keçirilib

**Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə aprelin 17-də Mikayıl Müşfiq adına Giləzi qəsəbə tam orta məktəbində "Narkomaniya, erkən nikah və onların fəsadları" adlı tədbir təşkil olunub. Tədbirdə Xızı RİHBA-nın, Xızı Rayon Polis Şöbəsinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin əməkdaşları, Mikayıl Müşfiq adına Giləzi qəsəbə tam orta məktəbinin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.**





Tədbirdə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov narkomaniyanın cəmiyyətin sağlam inkişafına, mənəviyyatına ağır zərbə vurmasından, narkotiklərin qəbulunun insan orqanizmi üçün zərərli nəticələrindən, erkən nikah və onun törətdiyi fəsadlardan söz açaraq, müasir dövrümüzdə cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən olan narkomaniya və erkən nikah faktlarına qarşı mübarizənin gücləndirilməsi məqsədilə ölkəmizdə, o cümlədən, Xızı rayonunda kompleks tədbirlərin mütəmadi olaraq həyata keçirildiyini və təbliğat işlərinin genişləndirildiyini qeyd edib.

Sonrakı çıxışlarda cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomanlığın və gənclər arasında erkən nikahın fəsadları, ona qarşı mübarizə üsulları, xüsusilə valideyn və müəllimlərin gənc nəslin tərbiyəsində və maariflənməsində önəmli rolu haqqında, eləcə də gənclərin idmana və faydalı vərdişlərə yönəldilməsinin, hüquq-mühafizə orqanlarının bu mübarizədə iştirakının əhəmiyyəti barədə geniş şəkildə bəhs edilib.

Tədbirin sonunda mövzu ilə bağlı videoçarx nümayiş olunub.

***"XIZI", R.M.***
***17 aprel 2024-cü il***

# Xızıda "Yaşıl düşüncə" - Gənclər düşərgəsi təşkil edilib

**Aprelin 25-26-da Xızı rayonunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl düşüncə" - Gənclər düşərgəsi təşkil edilib.**





"Yaşıl Düşüncə" - Gənclər düşərgəsinin təşkilində əsas məqsəd Ümummilli Lider Heydər Əliyev irsinin və 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin təbliği, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın müvafiq bəndlərinin icrası, istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, onların bilik və bacarıqlarının mübadiləsi və asudə vaxtın səmərəli şəkildə qurulması olub. Düşərgənin iştirakçıları Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponantlarla tanış olublar.

Düşərgədə Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101 illiyi ilə əlaqədar görkəmli oftalmoloq-alimin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilib, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması sahəsində mütəxəssislər və eko gənc aktivistlərlə görüş keçirilib. Eləcə də hamı üçün maraqlı olan NHN formatında intellektual oyun və tir atıcılığı yarışı təşkil edilib.

Sonda yarışda qalib gələn gənclərə diplomlar təqdim olunub.

***"XIZI", R.M.***
***26 aprel 2024-cü il***

# "Erkən nigah və onun fəsadları" mövzusunda tədbir keçirilib





**M.A.Dadaşzadə adına Şorabad qəsəbə tam orta məktəbində şagirdlərlə "Erkən nigah və onun fəsadları" mövzusunda tədbir keçirilib. Mayın 16-da Xızı Rayon İcra Hakimiyyətinin və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin, "Xızı Rayon Mərkəzi Xəstəxanası" Publik hüquqi şəxsin, eləcə də Abşeron-Xızı Regional Təhsil İdarəsinin əməkdaşları iştirak ediblər.**

Mövzu ətrafında çıxışlar dinlənilib. Çıxışlarda bütün dünyanı narahat edən aktual problemlərdən birinin də erkən nikahların olduğu vurğulanıb. Bildirilib ki, erkən nikahlar fərdin mənəvi-psixoloji və bioloji cəhətdən inkişafına təsir edən, təhsildən yayındıran, sosiallaşmasına mane olan önəmli faktordur.

Qeyd olunub ki, erkən nikahların problem yaratmasının səbəblərindən biri də yeniyetməlik dövrünə təsadüf etməsidir. Yeniyetməlik dövründə nikaha daxil olmaq uyğun dönəm hesab edilmir.

Çıxışlarda erkən nikahın fəsadlarından və onlara qarşı aparılan mübarizə tədbirlərindən danışılıb.

Daha sonra yetkinlik yaşına çatmayanlarla mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Tədbirin sonunda erkən nikahın fəsadlarını əks etdirən videoçarx nümayiş etdirilib.

***"XIZI", R.M.***
***16 may 2024-cü il***

# Mədəniyyət xəbərləri

## Aprel döyüşlərindən 8 il ötür





**2016-cı ilin Aprel döyüşlərindən 8 il ötür. Bu döyüşlərdə Vətənimizin ərazi bütövlüyü və azadlığı uğrunda canından keçmiş şəhidlərimizin sırasında Ravil Novruzovun adı böyük fəxrlə çəkilir və dillərdə, qəlblərdə əbədiləşmiş ölməz xatirəsi böyük ehtiramla anılır, duyğularla yad edilir.**

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin əməkdaşları aprelin 4-də Giləzi qəsəbəsinə gələrək, şəhid Ravil Novruzovun məzarını ziyarət edib, önünə tər qərənfillər düzüblər.

Şəhidin məzarı önündə Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəsi-baş məsləhətçi Mönsün Bağırov çıxış edərək, Aprel döyüşlərini 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərə gedən yolun ilk addımları kimi dəyərləndirərək, bu savaşın ölkəmiz, xalqımız, bütövlükdə tariximiz üçün mühüm əhəmiyyətə malik olduğunu bildirib.

Rayonun mədəniyyət işçiləri daha sonra I Qarabağ müharibəsində Daşaltı istiqamətində şəhid olmuş Araz Rüstəmovun, 44 günlük Vətən müharibəsinin şəhidləri Rafiq Məcidovun, Vidadi Allahverdiyevin, Xaspolad Qasımovun, 12 sentyabr 2022-ci ildə şəhid olmuş Saleh Qurbanovun məzarlarınını ziyarət ediblər.

*"XIZI", R.M.*
*04 aprel 2024-cü il*

## "Gücün və xoşbəxtliyin təməli sağlamlıqdır" mövzusunda tədbir keçirilib



Xızı rayon Mərkəzi Kitabxanasında mədəniyyət işçilərinin iştirakı ilə 7 Aprel - Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbir keçirilib. Aprelin 9-da "Gücün və xoşbəxtliyin təməli sağlamlıqdır" mövzusunda təşkil olunmuş tədbirdəki çıxışlarda "7 Aprel - Ümumdünya Sağlamlıq Günü"nün yaranma tarixindən, ölkələrin və insanların həyatında səhiyyənin oynadığı rolun əhəmiyyətindən, mədəniyyət müəssisələrində çalışan işçilərin sağlamlığının qorunmasının vacibliyindən söhbət açılıb.

Daha sonra mövzu ətrafında maarifləndirici müzakirələr, fikir mübadilələri aparılıb.

*"XIZI", R.M.*
*09 aprel 2024-cü il*

## "Ağ ölümdən qurtulaq!"





**C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə aprelin 8-də O.Həsənov adına Tıxlı kənd ümumi orta məktəbində narkomaniyaya qarşı mübarizəyə dair "Ağ ölümdən qurtulaq!" adlı maarifləndirici tədbir keçirilib. Tədbirdə Heydər Əliyev Mərkəzinin və Mərkəzi Kitabxana Sisteminin əməkdaşları, eləcə də yuxarıda adı çəkilən təhsil ocağının müəllim və şagird kollektivi iştirak ediblər.**

Mövzu ətrafında çıxış edənlər narkomaniyanın insanlara vurduğu fiziki, psixi və mənəvi zərərlərin uzun müddət qalıcı olduğunu vurğulamış, ümumilikdə yaranan bu asılılığın məhvə apardığını bildirmişlər. Ölkəmizdə narkomaniya ilə mübarizə tədbirlərinin geniş miqyasda həyata keçirildiyini qeyd edən çıxışçılar məktəbliləri və gəncləri, xüsusən, pedaqoqları bu maarifləndirmə işlərinin bilavasitə iştirakçısı və təşkilatçısı olmağa dəvət etmişlər.

Sonda mövzu ilə bağlı məktəblilәri maraqlandıran suallar cavablandırılıb.

*"XIZI", R.M.*
*08 aprel 2024-cü il*

## Mədəniyyət işçiləri "Birlikdə yaşıl və sağlam gələcəyə doğru" adlı ağacəkmə aksiyasında



**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsaslanaraq, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Xızı rayon Komitəsinin birgə təşkilatçılığı ilə "Birlikdə yaşıl və sağlam gələcəyə doğru" adlı ağacəkmə aksiyası keçirilib.**

Aprelin 18-də rayonun Sayadlar kəndi ərazisində yerləşən Mikayıl Müşfiq xatirə muzeyinin həyətyanı sahəsində təşkil edilmiş aksiyada mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyasının keçirilməsində əsas məqsəd Azərbaycanda ətraf mühitin, meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamaq, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etmək olub.

Ağacəkmə aksiyası prosesində görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin Xatirə muzeyinin həyətyanı sahəsində şam ağacları və müxtəlif növ gül kolları əkilib, eləcə də təmizlik, abadlıq işləri aparılıb.



*"XIZI", R.M.*
*18 aprel 2024-cü il*

## Beynəlxalq Muzeylər Günü ilə əlaqədar ekskursiyalar təşkil olunub

**Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi Xızı rayon nümayəndəliyinə tabeli mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə 18 May - Beynəlxalq Muzeylər Günü ilə əlaqədar rayon ərazisində yerləşən muzeylərə ekskursiyalar təşkil olunub.**

Mədəniyyət işçilərinin iştirakı ilə M.Müşfiq Xatirə muzeyi və C.Cabbarlı Ev muzeyinə təşkil olunmuş ekskursiyalara ümumtəhsil məktəblərinin şagirdləri də cəlb olunub. Milli-mədəni irsimizlə və zəngin tarixi keçmişimizlə, maddi-mədəniyyət nümunələri ilə tanış edilməsi, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi məqsədi ilə keçirilmiş tədbirdə giriş sözü ilə çıxış edən Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəsi - baş məsləhətçi Mönsün Bağırov "18 may - Beynəlxalq Muzeylər Günü"nün yaranma tarixi və əhəmiyyətindən danışıb. Beynəlxalq Muzeylər Gününün qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda qeyd edildiyini diqqətə çatdıran M.Bağırov ölkəmizdə milli-mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı olduğunu vurğulayıb.





Daha sonra muzey bələdçiləri tədbir iştirakçılarını eksponatlarla yaxından tanış edərək, onları maraqlandıran sualları cavablandırıblar.

*"XIZI", R.M.*
*18 may 2024-cü il*


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*3308001944240023012 4*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 910*

*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*